**Tarix:** 10.06.2024

**Dəyişiklik №:** 03

# MƏXFİLİK VƏ QƏRƏZSİZLİK BƏYANI

"ALCO" Sürtkü Yağları Sınaq Laboratoriyası fəaliyyətlərini qərəzsiz şəkildə yerinə yetirir və Laboratoriya Müdiri qərəzsizliyə görə öhdəlik götürür.

"ALCO" Sürtkü Yağları Sınaq Laboratoriyası:

1. Milli və beynəlxalq hüquqi qaydalara riayət edilməsini, qanunvericiliyin öhdəliklərinin yerinə yetirilməsini, laboratoriya fəaliyyətində yeniliklərin tətbiq edilməsini və AZS ISO/IEC 17025:2020 Beynəlxalq Standartının tələblərinə uyğun olaraq xidmətlərin göstərilməsini təmin edir;

2. Fəaliyyətlərlə bağlı tələblərin qiymətləndirməsini, laboratoriya işçilərinin ödənişli sınaq sayından və ya sınaq nəticələrindən müstəqil olaraq heç bir şəxs, şirkət, və təşkilata imtiyaz göstərməməsini, laboratoriyaya personalını təzyiq altında buraxmamasını, qərəzsizlik çərçivəsində tələblərə uyğun olaraq xidmət göstərməsini, kənardan göstəriləcək təzyiqlərin qarşısını almasını və bu vəziyyətdə personalın məlumatlandırılmasını təmin edir;

3. Davamlı olaraq qərəzsizlik risk analizlərinin müəyyən edilməsini təmin edir;

4. Müştərilərə laboratoriyanın çatışmamazlığından yaranan üçüncü tərəfin zərərlərini kompensasiya edilməsini təmin edir;

5. Fəaliyyətlə bağlı məlumatlar, kənardan daxil olan məlumatlar və müştəri ilə bağlı məlumatlar gizli saxlanılmasını təmin edir. Müştərinin razılığı olmadan, müştəri məlumatlarının üçüncü tərəflərə açıqlanmır. Laboratoriyanın məxfi məlumatları açıqlanması qanunla tələb olunduqda və ya müqavilə şərtlərində qeyd olunubsa bu zaman açıqlanan məlumat barəsində müştəri məlumatlandırılması təmin edilir;

6. Müştəri haqqında digər mənbələrdən əldə edilmiş məlumatlar və məlumatın təminatçısı laboratoriya tərəfindən məxfi saxlanılması təmin edilir;

7. Laboratoriyaya daxil olan kənar şəxslərin əldə etdiyi məlumatların məxfi saxlanılmasını təmin edir.

**"ALCO" Sürtkü Yağları Sınaq Laboratoriyasının**

**Müdiri**

**Aytən Aliyeva**

Əlavə 2.